# Ali məktəb mühazirələrinin müasir növləri və formaları

**Səid Həmidov**
*ADPU-nun dosenti*
**E-mail:** hamidovsaid@mail.ru

**Rəyçilər:** t.e.ü.f.d., dos. A.M. Quliyev,
t.e.ü.f.d. Ç.M. Həmzəyev

**Açar sözlər:** mühazirə, tədris, didaktik məqsəd, məzmun, dərslik, vəsait, müstəqil iş, təlim forması

**Ключевые слова:** лекция, преподавание, дидактическая цель, содержание, учебник, пособие, самостоятельная работа, форма обучения

**Key words:** form of lecture, educational, didactic purpose, maintenance, textbook, means, independent work, training

Mühazirə ali məktəblərdə ənənəvi aparıcı bir formadır. Onun əsas didaktik məqsədi tədris materialını mənimsəmək üçün əsas istiqamətinin formalaşdırılmasıdır. O, təlimin didaktik dövrünün əsas bəndi olub elmi tərbiyəvi dünyagörüşünün artması funksiyasını yerinə yetirir.

Mühazirə bütün növ tədris formalarının metodoloji və təşkilati əsasını təşkil edir. Bir çox hallarda mühazirə əsas informasiya mənbəyi rolu oynayır. Bu adətən dərsliyin olmaması və ya həmin elmi məlumatların hələ də dərsliklərdə öz əksini tapmayan vaxtlarda baş verir. Belə olan hallarda o, yalnız mühazirəçi tələbələrə lazım olan materialı mənimsəməyə kömək edir. Tədris materiallarının tələbələrə çatdırılması mühazirəçinin emosional təsirindən, auditoriya ilə əlaqə yaratmasından çox asılıdır. Mühazirələr konkret bilik oblastının tələbəyə aydın olmasını, həmin problemin həll edilməsini, məntiqini, öyrədilən predmetin elimdə də rolunu izah etməklə öyrənilən fənnə qarşı maraq yaradır.

Mühazirə materialının və dərslik materialını əsası eyni olsa da. Sözsüz ki, ilk mühazirə dərslik qarşısında üstünlük təşkil edir. Çünki mühazirədə yeni elmi texniki suallar işıqlandırılır ki, bu da dərslikdə olmaya bilər. Bundan başqa mühazirə və dərslik öz həcminə görə də fərqlənir. Dərslikdə bütün xırdalıqlar detallar açıqlansa da, adətən bu mühazirə də olmur. Lakin bəzi hallarda, məsələn yeni kursların yaradılması zamanı mühazirə tələbələrə biliyinin örtülməsi üçün yeganə forma olaraq qalır. Çünki mühazirə yeni dərsliyin yaradılmasını qabaqlayır. Adətən, dərsliyin yaradılması bir neçə il çəkir.

Mühazirənin məzmunu, tədris proqramının əsasında qurulur. Burada ən əsas rol mühazirə deyənin yaradıcılığına əsaslanan araşdırılmış, materiallardır. Bu da tələbələrin fənnə qarşı marağını artırır. Ali məktəb mühazirəsi sadəcə dərslikdə olan materialların tələbəyə çatdırılması deyil. Bu mühazirə pedaqoqdan müəyyən bilik sahəsində elmi pedaqoji yaradıcılıq, ustalıq tələb edir. Əsil pedaqoq mühazirələrə dərsə bir-iki gün qalmış yox, bütün ömrü boyu hazırlaşır. Müəllim və elmi bilikləri tələbələrə çatdırmaqla yanaşı, həmin elmdə öz nəzər nöqtəsini də bildirir. O, öz ideyalarını deyir. Həmin fənnə qarşı münasibətini bildirir. Hər bir mühazirə ondan elmi biliklərin analizini tələb edir. Mühazirəyə hazırlaşmaq üçün müəllim öyrədiləcək materialların ən əsası, ən yadda qalan hissələrini seçməlidir. Mühazirə həmçinin tələbələri fikirləşməyə vadar etməlidir. Onların dünyagörüşü formalaşdırmalıdır.

Mühazirə vaxtı auditoriya müəllimdən mənalı, canlı, maraqlı məlumatlar gözləyir. Mühazirə vaxtı müəllimdən bilikdən əlavə, geniş erudisiya, məntiqi arqumentlər tələb olunur. Buda o deməkdir ki, müəllim, mühazirə vaxtı tələbələrin təkcə şüuruna yox, həmdə hissiyyatına təsir etməlidir. Eyni zamanda, gözəl natiq olmalıdır.

Ən yaxşı mühazirələrdə elmi informasiyaların çatdırılması zamanı tələbələrlə əks əlaqənin yaradılması çox yaxşı haldır. Zəif mühazirələrdə isə əlaqə birtərəfli olur. Ona görə də belə mühazirələrin davamiyyəti formal xarakter daşıyır. Belə hal bütün zəif təşkil edilmiş mühazirələr da baş verir.

Bir faktı də nəzərdən qaçırmayaq ki, mühazirə materialının möhkəmləndirilməsi üçün seminar, praktiki və laboratoriya dərsləri mövcuddur. Çünki yalnız bu dərslərdə tələbələr öz üzərlərində müstəqil işləyirlər.

Hər bir mühazirə elə qurulmalıdır ki, tələbələr həmin materialı konspektləşdirə bilsinlər.

Hər bir mühazirə materialı induksiya, deduksiya, analiz və sintez tələb edir.

Bir qayda olaraq ayrıca mühazirə 3 əsas hissədən ibarət olur: giriş, əsas hissə, nəticə

Giriş hissəsi. Mühazirənin məqsəd və vəzifələrinin formalaşdırılması, problemin qısa xarakteristikası, ədəbiyyat siyahısı. Bəzən əvvəlki mövzuları ilə bağlı əlaqənin yaradılması

Əsas hissənin şərhi. İsbat, hadisələrin işıqlandırılmasının təhlili, faktların təhlili təcrübənin nümayişi müxtəlif nöqteyi-nəzərlərini xarakteristikası. Öz mövqeyinin təyin edilməsi, nəticələrinin formalaşdırılması, praktika ilə əlaqənin göstərilməsi, prinsip və metodların müsbət və mənfi cəhətlərinin nəzərdən keçirilməsi.

Nəticə. Əsas nəticənin formalaşdırılması, müstəqil iş üçün tapşırıqlar, metodik məsləhətlər, suallara cavab.

Əsasən xüsusi rol giriş mühazirələrinə şamil edilir. Onun materialı tələbəni əsas informasiyanı qavramağa hazırlayır. Bilik sahəsinə aid məsələlərə məhz burda baxılır. Metodik cəhətdən giriş mühazirəsi elə qurulmalıdır ki, tələbələrdə bu elmə maraq yaransın, onun haqqında tam təsəvvür formalaşsın.

Giriş mühazirəsinin necə keçməsi müəllim ilə tələbənin qarşılıqlı əlaqəsindən asılıdır. Elə birinci mühazirədən bilmək olar ki, tələbə ilə əks əlaqə qurulub ya yox.

Adətən, tələbələr giriş mühazirələrinə daha böyük maraq göstərirlər. Çünki onları yeni fənn və yeni mühazirəçi maraqlandırır. Əgər giriş mühazirəsindən sonra tələbələrdə sual yaranmadısa və onlar öz fikirləri ilə bölüşmədilərsə deməli, müəllim həmin fənnə maraq yarada bilməyib.

Yekun mühazirədə bütün kurs üzrə yekun işlər aparılır. Tələbələrin diqqəti əldə olunan biliklərin praktiki reallaşdırılmasına yönəldilir. Gələcəkdə müxtəlif problemlərin öyrənilməsi üçün istifadə edilməli olan elmi tədqiqat işləri, kurs layihəsi, bu sahədə ədəbiyyat tövsiyə edirlər.

İcmal mühazirələr keçilənlərin təkrarı deyil, onlar mühazirə materialının məzmununu dərinləşdirmək məqsədi ilə keçirilir.

Mühazirə metodiki cəhətdən bu əsas tələblərə cavab verməlidir: elm və texnikanın müasir səviyyəsində olmalıdır; müəyyən mövzunun işıqlandırılması tamamlanmış xarakter kəsb etməlidir; tələbələrdə verilmiş materiallara aid idrakı maraq yaratmaq üçün daxili inam olmalıdır. Yaxşı düşünülmüş şəkilli nümunələri saxlamaq; tələbələrin müstəqil işləri üçün istiqamət vermək; mühazirəçi tələbələrin ümumi hazırlığı və inkişafını nəzarətdə saxlamalıdır.

Mühazirədən mühazirəyə elmi şərhlərin səviyyəsini artırmaq lazımdır ki tələbə üçün dərs maraqlı olsun, həm də asan mənimsənilsin. Ona görə də ilk kurslarda əsas pedaqoji və psixoloji diqqəti mühazirənin sistemli olmasına və müstəqil işlərə yönəltmək lazımdır.

Ilk kurslarda mühazirə ilə dərsliklərin, vəsaitlərin, müstəqil işlərin qarşılıqlı əlaqəsi haqqında konkret göstərişlər vermək lazımdır. Aşağı kurslarda tələbələri mühazirələri konspektləşdirməyə öyrətmək lazımdır. Çünki düzgün tutulmuş konspekt mühazirə materialını daha yaxşı mənimsəməyə kömək edir.

Mühazirə ali məktəbdə dərslərin əsas forması kimi aşağıdakı didaktik funksiyaları yerinə yetirməlidir: təlimin vəzifələrinin quruluş və əsaslandırılması, yeni biliklərin mənimsənilməsi, intellektual bacarıqların və vərdişlərin aşılanması, tələbələri gələcək tədris fəaliyyəti üçün motivasiya etmək, tədris edilən fənni digər fənlərlə inteqrasiya etmək və eləcə də nəzəri cəhətdən analiz etməyə marağı artırmaq.

Təlim forması kimi mühazirənin çox böyük üstünlüklərə malik olmasına baxmayaraq, o, müəyyən çatışmazlıqlara da malikdir.

Mütəxəssislər vurğulayırlar ki, mühazirədə tələbələrin çoxu passiv olur. Ənənəvi mühazirə təfəkkürü yüksək səviyyədə inkişaf etdirmir. Buraya analiz, sintez, qiymətləndirmə və başqalarını aid etmək olar.

İri həcmdə informasiyanın ötürülməsi hətta onun qavramasına və anlamasına mane olur. Ənənəvi təlimdə əks əlaqə problemi yaranır. Mühazirə monoloq formasını alır. Buna görə də tələbənin yaradıcı potensialı inkişaf etmir.

Qeyri ənənəvi mühazirələr yuxarıda sadalanan çatışmazlıqları aradan qaldırmağa imkan verir.

Mühazirənin inkişafı təlim forması olaraq iki istiqamətdə gedir. 1. Məqsədyönlü metodiki təkmilləşdirmə 2. Mühazirənin oxunması ilə yeni məzmun və təqdim edilmə üsullarının axtarılması

Mühazirələrin formal strukturunun seçilməsi konkret tarixi şəraitlə müəyyən olunurdu. Bu tətbiq oblastından və auditoriyanın sosial-psixoloji xüsusiyyətlərindən asılı olurdu. Belə ki, bu mühazirə deyən təkcə informasiya ötürmürdü, o, həm də öz sözünün gücü ilə insanlara təsir edirdi.

İndiki zamanda mühazirə deyənin bütün səyləri auditoriyaya ilə aktiv ünsiyyətə yönəlməlidir. O, öz mövqeyini nümayiş etdirməlidir. Etimad və təbii şəraitin təmin edilməsi, başqa bir insanın mövqeyini dinləmək və anlamaq istəyini həyata keçməsinə şərait yaratmalıdır.

Yalnız formal mühazirə strukturunu dəyişdikdən sonra bu vəzifələri yerinə yetirmək mümkün olacaq.

Bütün yeni termin və anlayışlar izah edilməlidir. Əyani vasitələrdən mütəmadi istifadə olunmalıdır. İzah zamanı bu istiqamət qaydalarına əməl olunur: asandan çətinə, məlumdan məchula, sadədən mürəkkəbə, yaxından uzağa. Real həyatla əlaqəli faktlar seçilir.

Lövhə mühazirə prosesi zamanı estetik doldurulmalıdır. Mühazirə məzmunlu, inandırıcı olmalıdır. Mühazirə materialı kağızdan və ya konspektdən oxunmamalıdır, yalnız onlarla tutuşdurulmalıdır. Mühazirə deyən verbal və qeyri verbal vasitələrdən istifadə etməlidir. Verbal vasitələrə səs, qeyri verbal vasitələrə isə jestlər, mimikalar, pauzalar və s. aid edilir. Mühazirəçi öz dediyinə inanmalıdır və dediklərinə arqument gətirilməlidir.

Auditoriyanın əhval ruhiyyəsini hiss etməlidir və onlarla əlaqə yaratmalıdır. Mötəbər xarici görkəmi olmalıdır. Mühazirəçinin auditoriyaya daxil olma manerası və onu ilk işlətdiyi sözlər tələbələrin diqqətini işgüzar ahənglə köklənməlidir.

Öyrənilən mövzuya motivasiyanı artırmaq üçün metodik üsullardan istifadə etməlidir (aktuallığı, tələbatı ilə bağlı, gələcək peşə təcrübəsi ilə, real həyatla əlaqələnməlidir).

Problemli situasiyalar yaradılmalıdır. Əsas dərslikdə olmayan materiallar tələbələrə çatdırılmalıdır.

Müəllimi mühazirələrdə qeydiyyat aparmağı tələb edir, mühazirələrdə qeydlər aparılması metodikası tələbəyə öyrədilməli və bu tələbin yerinə yetirilməsinə nəzarət etməli və onlara kömək etməlidir.

Diqqəti saxlamaq üsullarından istifadə etməlidir, buraya ritorik suallar, zarafatlar, tarixi

ekskursiyalar, yaradıcı alimlərin həyat bioqrafiyası və sairə aid etmək olar.

**Məqalənin aktuallığı.** Ali məktəblərdə mühazirənin ənənəvi aparıcı bir forma kimi didaktik məqsədinin tədris materialını mənimsəmək üçün əsas istiqamətin formalaşdırılması olduğunu və onun elmi tərbiyəvi dünyagörüşünün artmasında əhəmiyyətini nəzərə alsaq, məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə mühazirənin hisslərinin şərhi ilə yanaşı, yekun və icmal mühazirələrin məzmunu haqda ətraflı məlumat verilir, didaktik funksiyalar, inkişafının əsas istiqamətləri, öyrənilən mövzuya motivasiyanı artırmaq üçün zəruri metodik üsullar göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Красинская Л.Ф. Учимся учить по-новому, или о неиспользованных возможностях лекции // Высшее образование в России, 2011. № 2.

2. Колесникова, И. А. Коммуникативная деятельность педагога: учеб. пособие для студ. высш. пед. учеб. заведений / под ред. В. А. Сластенина. М., 2007.

3. Акулич М.М. Образование в условиях глобализации // Университетское управление, 2005, № 5.

**С. Гамидов**

## Современные виды и формы вузовской лекции
## Резюме

В статье затронуты следующие вопросы:

- роль лекции в учебном процессе
- методы построения и проведения лекций
- вузовская лекция в контексте современной ситуации в образовании
- современные формы лекций в вузе
- критерии оценки качества лекции
- методы активного обучения.

**S. Gamidov**

## Modern types and forms of university lectures
## Summary

The article covers the following questions:

• the role of the lecture in the educational process
• methods of building and conducting lectures
• university lecture in the context of the current situation in education
• modern forms of lectures in high school
• criteria for assessing the quality of the lecture
• active learning methods.